# Qərbi Kaspi Universitetində İnzibati heyətlə keçirilmiş sorğu üzrə nəticələrin təhlili

Keyfiyyət Təminatı Mərkəzinin Qərbi Kaspi Universitetinin inzibati heyəti (284 nəfər) ilə keçirdiyi anonim sorğunun əsas məqsədləri inzibati heyətin sosial həyatında universitet dəstəyi, kadryönümlü siyasətdə iştirak aktivliyi, rəhbərliyin qəbul etdiyi qərarların işçi heyətə çatdırılması vasitələri, inzibati heyət arasında qarşılıqlı əlaqə vasitələri, işçi heyətin tibb məntəqəsi,kitabxana və yeməkxana xidmətlərindən məmnunluq səviyyəsi haqqında məlumatlara yiyələnməkdir.

Sorğuda 1 bəli/xeyir, 10 ədəd 4 şkalalı (razıyam/razı deyiləm) suallardan istifadə edilmiş, hər bir iştirakçı bütün sualları cavablandırmışdır.Personalın ümumi məmnunluq göstəricisi 74% təşkil edir. Ümumi məmnunluq səviyyəsini bir neçə dəyişənlərdə yüksək göstəriciləri nəzərə alaraq qənaətbəxş hesab etmək olar.

Inzibati heyətin böyük əksəriyyəti (96%) rəhbərliyin qərarları haqqında asanlıqla məlumatlana bilir. Bu universitet daxili kommunikasiyanın effektivliyindən xəbər verir.




Personalın sosial və idman fəaliyyətlərində aktivliyi 56.8% mənfi yəni, xeyir olaraq cavablandırılıb. Bu universitetdaxili sosial və idmanla əlaqəli tədbirlərin az olması və ya inzibati heyətin bu tədbirlərə yetəri qədər təşviq edilməməsi və ya vaxtın idarəedilməsində olan boşluqlardan xəbər verir.



Kadryönümlü qərarların müzakirə və qəbul edilməsi prosesində işçilərin fikirlərinin nəzərə alınması ilə 70% razıdır. Digər seçimlər qismən razıyam və əsasən razıyam fikirləri ilə çoxluğu təsdiq edir. Göstəricilər universitetdaxili qərarların çatdırılması sisteminin effektivliyindən xəbər verir.




İşçilər arasında qarşılıqlı əlaqələrin vəziyyəti haqqında heyətin fikirləri çeşidlidir. Belə ki, ümumilikdə 30% işçi universitet daxili münasibətlərin yaxşı olduğu fikri ilə razılaşmır və ya qismən razılaşır. Lakin çoxluq (təxminən 65%-dən çox) qarşılıqlı münasibətlərin müsbət olduğu fikrindədir.




İdman, sosial və bədii fəaliyyətlərə iştirak nisbəti kəskin fərqlənmir, hər 3 kateqoriyada 65%-dən çox kadr aktiv iştirak etdiyini qeyd edir. İnzibati heyətin universitetdaxili sosial-mədəniyönümlü tədbirlərə münasibəti müsbətdir.

| İdman fəaliyyətləri yaxşıdır. | Sosial tədbirlərin sayı qanedici səviyyədədir. | Bədii fəaliyyətlər sayı qanedici səviyyədədir. |
|---|---|---|
| Razıyam - 42% | Razıyam - 51,9% | Razıyam - 45,1% |
| Əsasən razıyam - 24,7% | Əsasən razıyam - 33,3% | Əsasən razıyam - 22,8% |
| Qismən razıyam - 29,6% | Qismən razıyam - 9,9% | Qismən razıyam - 24,7% |
| Razıyam Deyiləm - 3,7% | Razıyam Deyiləm - 4,9% | Razıyam Deyiləm - 7,4% |

Tibb məntəqəsinin iş keyfiyyətindən 91%-ə yaxın çoxluq razıdır. Lakin, yeməkxana fəaliyyəti ilə bağlı fikirlər çeşidlilik təşkil edir. Digər suallarla müqayisədə daha çox səs neqativ münasibəti ifadə edib. Yeməkxana fəaliyyətinə yenidənbaxışın keçirilməsini zəzuri edir.




Elektron kitabxana xidmətləri və auditoriya təmizliyinin təminatından məmnunluq göstərici olduqca yüksəkdir, (hər iki kateqoriyta üzrə 75%-dan çox say).

Ümumilikdə, inzibati heyətin ayrı-ayrı kateqoriyalar üzrə məmnunluq səviyyəsinin təhlili zamanı kəskin etiraz və narahatlıq doğuran hallarının ifadəsi ilə rastlaşırmır. Lakin, sorğu rəylərinə əsasən bir neçə sahədə mövcud boşluqların doldurulması məqsədilə aşağıdakı təkliflərə istinad etmək mümkündür.

Mövcud boşluqlar üzrə təkliflər listi:

1. **Bufet Təmizliyi:** Kantin təmizliyi ilə əlaqədar narahatlıqlar iki dəfə vurğulanaraq, sərtləşdirilmiş nəzarət və gigiyeniya standartlarına əməl etməyin əhəmiyyəti göstərilir.
2. **Müəllimlər üçün Əlverişli Yemək:** İçərişəhər kampusundakı müəllimlər üçün əlverişli qida və içki təmin edilməsi təklifinin edilməsi, universitet işçilərinin ehtiyaclarına cavab veriləcəyinin əhəmiyyətini vurğulayır.
3. **Şöbələrdə Qarşılıqlı Əlaqə Qüvvəsizdir:** Şöbələrdəki zəif əlaqənin təyin olunması və komandasının qurulması təklifi, daxili əməkdaşlığı gücləndirmək məqsədilənir.
4. **Müəllimlərin qərarvermə məhələlərində iştirakı:** Yeni qaydaların təşkilində müəllimlərin iştirak etməsi arzusu, qərarların alınmasında artan iştirak və əməkdaşlığa işarə edir.
5. **Sosial Şəbəkə Menecmenti:** Sosial media menecmenti və marketoloqun iştirakının effektivliyini artırmağa nail ola biləcəyini göstərən təklif, universitetin təbliğində effektiv əlaqənin rolu üçün bir tanınmağı nümayiş etdirir.
6. **Əlverişli Vaxt İdarəetməsi:** Əlverişli vaxtın daha effektiv şəkildə təşkil edilməsi təklifi, universitet işçiləri üçün iş-heyat balansını artırmağa yönlənmişdir.
7. **Elektron Məlumat Bazalarına Giriş:** Kitabxanadan olan razılıq ilə birlikdə, gələcəkdə tam açıq elmi bazalara daha geniş giriş əldə etmək arzusu, akademik resurslar üçün davam edən marağın bir göstəricisidir.
8. **Texniki Dəstəyin Gücləndirilməsi:** Texniki dəstəyin gücləndirilməsi ehtiyacı, universitetin texnologiya infrastrukturasını qorumağın və təkmilləşdirmənin əhəmiyyətini vurğulayır.

Keyfiyyət təminatı mərkəzinin müdiri: Wonda Grobbelaar